# “Gənc kimyaçıların yaradıcılıq müsabiqəsi”nin keçirilməsi barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsi müdirinin əmri

Bakı şəhər məktəblilərinin kimya elminə olan marağının daha da artırılması, bu sahədə nəzəri-təcrübi biliklərinin təkmilləşdirilməsi, şagirdlərin praktik və yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi, istedadlarının üzə çıxarılması məqsədilə “Bakı Şəhəri üzrə Təhsil İdarəsi haqqında Əsasnamə”nin 15.6-cı bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Bakı şəhəri ümumi təhsil müəssisələri və uşaq-gənclər inkişaf mərkəzlərinin 9-11-ci sinif şagirdləri arasında “Gənc kimyaçıların yaradıcılıq müsabiqəsi” keçirilsin.

2. Müsabiqənin Əsasnaməsi (Əlavə 1), Təşkilat Komitəsinin tərkibi (Əlavə 2) və müsabiqədə iştirak üçün Sifariş forması (Əlavə 3) təsdiq edilsin.

3. Ümumi təhsil müəssisələri və uşaq-gənclər inkişaf mərkəzlərinin rəhbərləri müsabiqənin təqdim olunan Əsasnaməyə uyğun olaraq yerlərdə təşkili ilə əlaqədar lazımi işlər görsünlər.

4. Ümumi təhsil sektoru (S.Bektaşi) və Təlimə Dəstək Mərkəzi (Z.Ələkbərova) müsabiqə ilə bağlı təşkilati və metodiki işləri həyata keçirsinlər.

5. Maliyyə və mühasibatlıq sektoru (E.Mehdiyeva) müsabiqə ilə bağlı maliyyə məsələlərini həll etsin.

6. Ümumi sektor (S.Rəsulova) əmrin əlavələrlə birlikdə çoxaldılıb yerlərə çatdırılmasını təmin etsin.

7. İctimaiyyətlə əlaqələr sektoru (B.Məmmədov) əmrin İdarənin internet saytında yerləşdirilməsini və müsabiqənin kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılmasını təmin etsin.

8. Əmrin icrasına nəzarət müdir müavini İ.Abdullayevaya həvalə edilsin.

**Əsas:** Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Fəaliyyət planı.

***Rəşad Tağıyev,***

***Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri***

***07 fevral 2019-cu il***

***№ F-89***

**Bakı şəhər məktəbliləri arasında “Gənc  kimyaçıların yaradıcılıq müsabiqəsi”nin keçirilməsi barədə Əsasnamə**

---